

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 66 (23.708)

14 aprel 2021-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Aprelin 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevilə ölkəmizdə işgüzar səfərdə olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko arasında qeyri-rəsmi görüş keçirilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün ADA Universitetində keçirilən “Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq” adlı beynəlxalq konfransda iştirak edib. Dövlətimizin başçısı konfransda çıxış edib.

Prezident İlham Əliyev çıxışında vurğulayıb ki, Dağlıq Qarabağ məsələsində Azərbaycan həmişə konstruktiv mövqedə olub, münaqişənin həlli yollarının tapılmasında hər zaman maraqlı olub.

Ölkəmizin başçısı bildirib ki, Azərbaycan XXI əsrin müharibəsini aparmaqla yanaşı, əgər belə demək mümkündürsə, mənəviyyat müharibəsi aparırdı: “Müharibə başlayarkən mənim hərbi qulluqçulara dərhal verdiyim əmrlərdən biri ləyaqətlə, mötədil davranmaq, mülki vətəndaşlara zərər yetirməmək barədə oldu. Ermənistan tərəfində mülki əhali arasında 40 nəfərdən az tələfatın olması bunu aydın göstərdi”.

Tədbir müzakirələr, şərhlər və sual-cavabla davam edib.





## Texnoparklar innovasiyayönümlü və biliyə əsaslanan iqtisadiyyatın qurulmasında mühüm rol oynayır

*Son illərdə Azərbaycan iqtisadiyyatının bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanılıb. Bu müddət ərzində rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilib, sahibkarlar tərəfindən iş yerləri açılıb, ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoyub.*

Müasir dünyada rəqabətə tab gətirmək üçün, ilk növbədə, təhsilə, zəngin biliklərə, informasiya texnologiyalarına, innovasiya iqtisadiyyatına arxalanmaq lazımdır. Bunlarla yanaşı, onu da qeyd etmək yerinə düşər ki, bazar iqtisadiyyatı şəraitində innovasiyayönümlü elmi laboratoriyaların və kiçik müəssisələrin (sahibkarların) formalaşması və inkişaf etməsi üçün texnoloji zonaların təşkili çox vacibdir.

Kiçik və orta biznesin inkişaf etdirilməsi dünyanın aparıcı ölkələrinin diqqət mərkəzindədir. Ali təhsil müəssisələrinin elmi potensialı ilə innovasiya təyinatlı kiçik və orta biznesin imkanlarının inteqrasiya olunmasının və elmi nəticələrin kapitallaşdırılmasının ən səmərəli üsullarından biri innovasiya təyinatlı texnoloji mərkəzlərin, texnologiyaların transfer mərkəzlərinin, texnoparkların yaradılmasıdır.

Dünya təcrübəsinin təhlili göstərir ki, texnoparkların yaradılmasında şərti olaraq üç model əsas götürülür: Amerika, Avropa və Asiya modelləri. Amerika modelinin ən tipik nümunəsi dünyada ilk texnopark – Stenford Universitetində yaradılmış “Silikon vadisi”dir. Stenford texnoparkı böyüklüyünə görə bu gün də liderdir.

Azərbaycanda ali təhsil müəssisələrində texnoparkların yaradılması yeni təcrübədir. Texnoparkların əsas struktur vahidi mərkəzlər hesab olunur. Buraya innovasiya-texnoloji mərkəz, tədris, məsləhət, informasiya mərkəzləri, marketinq, sənaye, maliyyə-sığorta, mühasibat-audit, strateji tədqiqat mərkəzləri daxildir. Milli iqtisadiyyatın yeni sahələrinin formalaşmasında və rəqabətqabiliyyətli olmasında texnoparkların böyük rolu vardır. Məsələn, ABŞ, Hindistan, Çin və digər ölkələr informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsində dünya səviyyəsində qabaqcıl olmalarına görə məhz texnoparklara minnətdardırlar.

Müasir dövrdə informasiya cəmiyyətinin biliklərə əsaslanan iqtisadiyyatın qurulmasında texnoloji biliklərin mərkəzinə çevrilən universitetlər mühüm rol oynadığından ali məktəb-texnopark vəhdətinin yaradılması da son illər geniş inkişaf tapmışdır. Belə texnoparklar bir və ya bir neçə universitet, həmçinin elmi-tədqiqat mərkəzləri ilə birbaşa və ya ortaq fəaliyyətləri ilə əlaqədar olub, tərkibində elmi nəticələrə və yüksək texnologiyalara əsaslanan müəssisələrin yaranmasına və onların inkişafına təşəbbüs göstərmək məqsədilə qurulur. Universitet texnoparkda fəaliyyət göstərən müəssisələrə innovativ elmi nəticələrin transfer edilməsi və işin idarə olunması sahələrində dəstək verir. Bu proseslərdə bütün yanaşmalar təşəbbüskarlıq və müəllif hüquqlarının qorunması müstəvisində həyata keçirilir.

Dünya standartlarına əsasən texnoparkların əsas hədəfləri universitetlərin təhsil, tədris və araşdırma fəaliyyətlərini dəstəkləyərək daha səmərəli nəticələr əldə etmək, sənayenin rəqabət gücünü artırmaq, yüksək texnologiyalara əsaslanan regional və iqtisadi inkişafı sürətləndirməkdir.

Bu gün milli iqtisadiyyatın inkişaf bazasının yüksək texnologiyalar əsasında qurulması istiqamətində ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında uğurlu siyasət həyata keçirilir. Yüksək texnologiyalar biliyə söykənən iqtisadiyyatın yaranması istiqamətində irəli atılmış əhəmiyyətli addımdır. Bu istiqamətdə fəaliyyətin əyani nümunəsi Sumqayıt texnoparkıdır.

Bundan başqa, “Şərur Sənaye Məhəlləsinin yaradılması və “Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 oktyabr tarixli 288 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanı Naxçıvan Muxtar Respublikasında sənaye sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasına xidmət edir.

Beləliklə, texnoparklar yeni ideyaların formalaşmasından başlayaraq onların tətbiq olunması və inkişaf etdirilməsinədək hərtərəfli şəraitin olduğu innovativ fəaliyyətləri təmin edən məkandır. Başqa sözlə, texnoparklar insan kapitalını sürətlə inkişaf etdirən, yüksək texnologiyalar istehsal edən qurumlardır. Belə qurumlar universitetlərin tərkibində olduqda daha aktiv fəaliyyət göstərə bilir.





Yüksək texnologiyaların inkişafı ilə bağlı dünya təcrübəsi göstərir ki, texnoparkın səmərəli fəaliyyəti onu elm, sənaye və ali təhsil müəssisələrinin kompakt yerləşdiyi yaşayış məntəqələrində – texnopolislərdə təşkil etmək məqsədəuyğundur.

Universitetlərin professor-müəllim, alim, tələbə və elmi-texniki heyəti kifayət qədər elmi nəticələrə, ixtira və patentlərə malikdir, aktiv elmi-texniki innovasiya fəaliyyəti həyata keçirirlər. Universitetlər elmi-texniki və innovasiya fəaliyyətində geniş beynəlxalq əməkdaşlıq və beynəlxalq layihələrdə iştirak etmək təcrübəsinə malikdirlər. Universitetlər kiçik və orta sənaye müəssisələri ilə birgə geniş elmi-texniki və innovasiya fəaliyyəti ilə məşğul olurlar.

Ümummilli lider, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2002-ci il 12 iyun tarixli Sərəncamı ilə Naxçıvan Dövlət Universitetinə yüksək özünüidarə statusu, muxtariyyət hüququ verilmişdir. Ulu öndər müxtəlif vaxtlarda (1974, 1992 və 1999-cu illərdə) 4 dəfə Naxçıvan Dövlət Universitetində olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Dövlət Universitetinin Elektron kitabxanasının və Konservatoriyasının açılışında iştirak etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov universitetin inkişafına daim böyük qayğı göstərir.

Bütün bunlar deməyə əsas verir ki, Naxçıvan Dövlət Universiteti uğurlu tarixi inkişaf yolu keçib. Universitetdə bu gün 454 nəfərlik professor-müəllim heyəti ilə kadr hazırlığı aparılan 63 bakalavriat, 76 magistratura, 60 doktorantura ixtisasları, demək olar ki, Beynəlxalq Elmi Parklar Assosiasiyasının müəyyənləşdirdiyi ixtisaslaşma sahələrini əhatə etməkdədir. Bu ali təhsil ocağında dissertasiya şurasının, həmçinin birləşmiş dissertasiya şurasının fəaliyyət göstərməsi də fəlsəfə doktoru və elmlər doktoru proqramı üzrə tədqiqatçı alimlərin yetişməsində əhəmiyyətli rol oynayır. Əgər 1996-cı ildə Naxçıvan Dövlət Universiteti ölkəmizdə 37 universitet arasında 36-cı yerdə idisə, 2016-2017-ci tədris ilində yeni texnologiyaların tətbiqi, tədrisin səviyyəsi, mənimsəmə və davamiyyətə görə ölkəmizdəki ali təhsil müəssisələri arasında birinci yerə layiq görülüb.

Tədris prosesini Avropa standartları və Azərbaycan təhsil qanunvericiliyinə uyğun quran universitetdə 2015-2016-cı tədris ili daha yaddaqalan olmuşdur. Cənubi Koreyanın KOICA təşkilatı ilə birlikdə Naxçıvan Dövlət Universiteti üçün “Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması” layihəsinin açılış mərasiminin keçirilməsi və Elektron Universitetin fəaliyyətə başlaması Azərbaycan ali təhsil məkanında büdcəsinə və layihəsinin genişliyinə görə ən iri həcmli və əhəmiyyətli layihələrdən biri kimi tarixə düşmüşdür. Elektron təhsil, onlayn sənəd dövriyyəsi, akademik idarəetmə və digər təhsilin idarə edilməsi modellərini özündə birləşdirən Elektron Universitet, nəinki təhsilin elektron vasitələrlə həyata keçirilməsini, eyni zamanda elektron imtahanları da əhatə edir.

Naxçıvan Dövlət Universitetinin kitabxanası ölkədə ayrıca korpusda yerləşən yeganə ali məktəb kitabxanasıdır. 100 minə yaxın kitabxana fondu olan kitabxanada “PROLİB” avtomatlaşdırılmış kitabxana-informasiya idarəetmə sistemi vasitəsilə bu günədək 30000 adda 5000 sayda kitabın elektron kataloqu yazılmış, tam mətnli elektron versiyası hazırlanaraq oxucuların istifadəsinə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamı ilə təməli qoyulan “Startap Naxçıvan” hərəkatı isə Naxçıvan Dövlət Universitetində peşəkar mütəxəssis hazırlığına, tələbə-gənclərdə innovativ ideyaların üzə çıxarılmasına xidmət edir.

***Muxtar respublikada innovasiyayönümlü iqtisadiyyata keçid, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan xidmət sahələrinin genişləndirilməsi, elmi-tədqiqatların aparılması və nəticələrinin sənayedə tətbiqi ali təhsil müəssisələrində müasir komplekslərin yaradılmasını zərurətə çevirir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması haqqında 2020-ci il 14 dekabr tarixli Sərəncamı yeni elmtutumlu texnologiyaların işlənməsi və tətbiqi, qlobal bazara çıxarılması, layihələrin inteqrasiyası nano üzrə ixtisaslaşdırılmış kadrların hazırlanması sahəsində böyük töhfələr verəcəkdir.***


**Hüseyn ƏSGƏRLİ**

*Naxçıvan Dövlət Universitetinin İnformasiya-Kommunikasiya Texnologiyaları və Elektron təhsil şöbəsinin müdiri*

*İstehsal müəssisələrimiz*

# Naxçıvan Avtomobil Zavodunun məhsullarına maraq artır

***Muxtar respublikamızda son illər artan istehsal müəssisələri sırasında maşınqayırma sənayesi ilə məşğul olan Naxçıvan Avtomobil Zavodu əhəmiyyətli yerlərdən birini tutur. Burada Almaniya, Belçika və İtaliyadan gətirilmiş müasir texnoloji avadanlıqlar quraşdırılıb. İstehsal üçün zəruri şərait yaradılıb, müəssisəyə təcrübəli mütəxəssislər cəlb olunub. Həm mexaniki, həm də sürət qutusu ilə işləyən müxtəlif avtomobillər istehsal edilən zavodun baş mühəndisi Rəhim İsmayılovla söhbət zamanı öyrəndik ki, müəssisənin Naxçıvan və Bakı şəhərində satış mərkəzləri, texniki xidmət şöbələri və avtomobillərin ehtiyat hissələrinin satış mağazaları, həmçinin Şərur və Culfa rayonlarında servis mərkəzləri fəaliyyət göstərir.***



Məlumat üçün bildirək ki, müəssisənin əsası 2006-cı ildə qoyulub, 2010-cu ildə istismara verilib. İstehsal prosesində keyfiyyəti əsas götürən zavod 2019-cu ildən "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının tərkibinə daxil olunub.

İstehsal sahəsi, satış salonu, anbar və inzibati binadan ibarət olan 2472 kvadratmetrlik obyektdə "Lifan 320", "Lifan 520", "Lifan 620", "Lifan X 60", ümumilikdə, 18 modeldə "NAZ-Lifan" avtomobillərinin istehsalı və satışı həyata keçirilir. Zavodun ümumi istehsal gücü ildə beş min avtomobildir. Hər il zavodda 1000-dən çox avtomobilin satışı həyata keçirilir.

2020-ci ildən zavodda "L7" markalı ailə avtomobillərinin və "FAV" markalı avtomobillərin istehsalına başlanılmışdır. "L7" markalı avtomobillər mərkəzi qapama sistemi, pəncərələrin avtomatik qalxması və beşpilləli mexaniki sürətlər qutusu ilə təchiz edilir.

İstehsal prosesinə əsasən görülən iş başa çatdıqdan sonra keyfiyyət üzrə mühəndis tərəfindən yoxlanılaraq növbəti sexə təhvil verilir.

Zavod 10 sexdən ibarətdir. İlk öncə çərçivə sexində avtomobilin əsas çərçivə hissəsi hazırlanır. Bu sexdə xüsusi panellər yerləşdirilib. Çərçivənin yığılması üçün qaynaqçı briqadası fəaliyyət göstərir. Bir qaynaqçı ön hissəni qaynaq edərkən başqa bir qaynaqçı digər hissələri hazırlayır. Daha sonra robotlar tərəfindən avtomobilin orta hissəsi quraşdırılır, bununla da avtomobilin əsas çərçivə hissəsinin hazırlanması başa çatır. Daha sonra hazır olan çərçivəyə avtomobilin hissələri quraşdırılır. Birinci sexdə elektrik naqilləri robotlar vasitəsilə yığılıb yoxlanılır. Zavodda hissələrin yığılması həm əl, həm də xüsusi robotlar vasitəsilə aparılır. İkinci sexdə robotlar tərəfindən avtomobilin havalandırma sistemi quraşdırılır. Havalandırma sisteminin bütün detalları yığıldıqdan sonra mühəndis tərəfindən yoxlanılır və növbəti sexə təhvil verilir. Digər sexdə robotlar tərəfindən avtomobilin təhlükəsizlik sistemləri, ustalar tərəfindən isə qapı tutacaqları bərkidilir. Növbəti sexdə avtomobilin əsasını təşkil edən ABC sistemi robotlar tərəfindən quraşdırılır. Bununla yanaşı,





avtomobilin kondisioner boruları, yan şüşələr və şüşə qaldıracaqları ustalar tərəfindən hissə-hissə yığılır. Beşinci sexdə avtomobilin maqnitofonları və havalandırma sistemini hərəkətə gətirən mexanizm və elektrik naqilləri öz yerlərinə qoyulur. Altıncı sexdə avtomobilin arxa hissələri – arxa buferlər xüsusi qurğular tərəfindən yerləşdirilir və qaynaqçılar tərəfindən həmin hissəyə bərkidilir. Növbəti sexdə əsas hissə sayılan mühərrikin qoyulması işi aparılır. Bu proses də robotlar tərəfindən həyata keçirilir. Digər detalların yoxlanması və quraşdırılması isə ustaların üzərinə düşür. Səkkizinci sexdə robotlar növbə ilə avtomobilin ön və arxa şüşələrini yerləşdirir. Bu iş başa çatıb yoxlanıldıqdan sonra doqquzuncu sexdə qapı içlikləri və oturacaqlar yerləşdirilir. Sonra onlara üzlüklər çəkilir. Avtomobil üçün xüsusi seçilmiş üzlüklər ustalar tərəfindən üzlənir və artıq qalan hissələr kəsilib götürülür. Onuncu sexdə ustalar tərəfindən avtomobilin bütün konstruksiyaları və akkumulyator yerləşdirilir. Sexlərdəki yığım işləri bitdikdən sonra isə mühəndis tərəfindən yoxlanılır və xüsusi sınaqdan keçirilərək satışa hazır vəziyyətə gətirilir. Onu da öyrəndik ki, zavodda çalışanların texniki təhlükəsizlik qaydalarına əməl etmələri diqqət mərkəzində saxlanılır.

Bu gün "Lifan" markalı avtomobillərə böyük maraq göstərilir. İstehsal müəssisəsi bir sıra Avropa dövlətləri ilə əməkdaşlıq edir, müqavilələr əsasında avtomobillərin xaricdə təqdimatı keçirilir. Həmçinin zavoda xaricdən gələn nümayəndələr tərəfindən burada xüsusi treninqlər təşkil olunur. Onu da deyək ki, avtomobil almaq üçün müraciət edən müştərilərə müxtəlif güzəştli kredit tarifləri tətbiq edilir. Hazırda müştərilər 25 faiz ilkin ödəniş və 48 aylıq kredit müddəti ilə istədikləri avtomobili əldə edə bilərlər.

Zavoddan çıxarkən müəssisənin istehsalı olan taksidən istifadə etmək qərarına gəldim. Taksi sürücüsü Famil Niyazov bildirdi ki, 10 ilə yaxındır adıçəkilən zavodun istehsalı olan avtomobildən istifadə edir. O bu müəssisənin istehsal etdiyi avtomobillərin yüksək keyfiyyətə malik olduğunu diqqətimə çatdırdı. Bəli, Naxçıvan Avtomobil Zavodunun avtomobilləri yüksək keyfiyyəti ilə seçilir. Təsadüfi deyil ki, dövlətimiz tərəfindən müharibə veteranlarına da həmin avtomobillərdən hədiyyə edilir. İnanırıq ki, müəssisənin məhsulları bundan sonra da böyük istehlakçı kütləsinin marağında olacaq.

**Məcid RƏŞADƏTOĞLU**

*Ailə təsərrüfatlarımız*

# Çəkdiyin zəhmət dəyərləndiriləndə...

*Muxtar respublikamızda kənd təsərrüfatının inkişafı diqqət mərkəzində saxlanılan sahələrdən biridir. Çünki bu sahənin inkişafı olmadan iqtisadiyyatın gücləndirilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi, sənaye üçün xammal ehtiyatının yaradılması mümkün deyil. Bu baxımdan kənd təsərrüfatının istənilən sahəsində fəaliyyət göstərən hər bir insan hərtərəfli qayğı ilə əhatə edilib. Ona görə də son illər muxtar respublikada kənd təsərrüfatının müxtəlif sahələrində xeyli uğurlara nail olunub.*

Heyvandarlıq da inkişaf etməkdə olan aqrar sektorlarımızdandır. Bu sahədə də məqsədyönlü addımlar atılır, mal-qaranın alınmasına və saxlanmasına, cins tərkibinin yaxşılaşdırılmasına yardım məqsədilə heyvandarlıqla məşğul olan fermerlərə banklar və digər kredit təşkilatları tərəfindən müxtəlif kreditlərin verilməsi təmin edilir. Digər tərəfdən, baytarlıq xidmətlərini müasir tələblər səviyyəsində təşkil etmək məqsədilə bu sahənin maddi-texniki təchizatının yaxşılaşdırılması istiqamətində davamlı tədbirlər görülür. Bütün bunlar isə adıçəkilən sahənin inkişafına öz müsbət təsirini göstərir.



Sadaladığımız imkanlardan yararlanıb, öz təsərrüfatını genişləndirən ailə təsərrüfatçılarından biri də Kəngərli rayonunun Çalxanqala kənd sakini Tahar Abdullayevdir. Onunla elə fermasında görüşərək həmsöhbət olduq. Öyrəndik ki, dünyaya gözünü zəhmətkeş, torpağa bağlı bir ailədə açıb. Necə deyərlər, ailəsini həmişə torpaqla, zəhmətlə təmasda görüb. Ata-babası heyvandarlıqla məşğul olublar. Uşaqlıqdan uzun müddət ailəsi ilə birlikdə obalarda yaşayıb. Bu illərdə heyvandarlığın sirlərini öyrənib. Müstəqil həyata qədəm qoyduqdan sonra öz təsərrüfatını yaratmaq qərarına gəlib. Atasının təsərrüfatından 2000 heyvanla ayrılıb. Bu gün isə 4000 heyvan saxlayır. Yəni heyvanların sayını ilbəil artırır. Çünki onun gün-güzəranını yaxşılaşdıran bu sahəyə göstərilən dövlət qayğısı davamlı xarakter alıb. Belə imkanlardan istifadə etməyə hər cür şərait yaradılıb. Elə bu şəraitin hesabınadır ki, istehsal etdiyi pendir, süd, qatıq, şor, yağ və başqa məhsullar özünə xeyli alıcı qüvvəsi toplayıb, ona gəlir gətirib. Tahar Abdullayev onunla əlaqə saxlayıb yerindəcə məhsulu əldə edənlərdən başqa həmin məhsulları satış yarmarkalarına da çıxarır. Bundan başqa, o, Bakı şəhərinə də məhsul göndərir.

Tahar Abdullayev yaradılan şəraitdən istifadə edərək təsərrüfatçılar üçün ayrılan kredit hesabına təsərrüfatını bir qədər də genişləndirib. Artıq onun ailə təsərrüfatında 7 nəfər çalışır. Heyvandarlığın qayğılarından da danışan müsahibim deyir ki, heyvandarlar köçəri həyat yaşayır. Biz də yay aylarında heyvanlarımızı Ordubad rayonunun Göygöl yaylağına aparırıq. Onu da deyim ki, yaylaqda olduğumuz müddətdə asudə vaxtımızdan səmərəli istifadə edərək əkinçiliklə də məşğul oluruq. Hektar yarım sahədən hər il 30 tona yaxın kartof istehsal edib həm yaşayış şəraitimizi yaxşılaşdırır, həm də muxtar respublika bazarlarında bolluğa, ucuzluğa, yerli məhsul tələbatına öz töhfəmizi vermiş oluruq.

Bundan başqa, kəndimizin iqlim şəraiti arıçılığa imkan verdiyinə görə 30 arı ailəsi də saxlayıram ki, onlardan da hər mövsümdə 300 kiloqrama qədər bal istehsal edirəm.

– Arzularına çatmaq üçün zəhmətə qatlaşmalısan, – deyən Tahar qeyd edir ki, insan zəhmət çəkib öz işi ilə məşğul olursa, mütləq bəhrəsini görür. İnsan inandığı, bacardığı bir sahə ilə vicdanla, səylə məşğul olursa, onun uğur qazanması heç də çətin deyil. Mən də təsərrüfatımı yaradarkən göz açıb gördüyüm ata-baba peşəmi davam etdirməyi düşünmüşəm. Bütün nailiyyətlərimin arxasında zəhmət dayanır. Ancaq işləməklə, çalışmaqla nail oluram hər şeyə. Bir də iş üçün şərait, dövlət dəstəyi də çox lazımdır ki, muxtar respublikamızda iş görmək istəyən hər bir zəhmət adamı üçün bu, var. Zəhmətinin dəyərləndirildiyini gördükdə isə insan daha da ruhlanır. Mənim də əməyim dövlətimiz tərəfindən mükafatlandırılıb. Belə ki, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif olunmuşam.

Öz övladlarını da zəhmətə alışdıran müsahibim bundan sonra daha da fəallıq göstərəcəyini, yaradılmış şəraitdən səmərəli istifadə edəcəyini dilə gətirdi, muxtar respublikamızda ona və onun kimi təsərrüfat adamlarına göstərilən qayğı üçün minnətdarlığını bildirdi.

**Telli MƏMMƏDOVA**

# Dövlət proqramlarının icrası istiqamətində işlər davam etdirilib

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş Dövlət proqramlarında və verilmiş tapşırıqlarda qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində mart ayında da işlərini davam etdirmişdir. Nazirliyin əməkdaşları payızlıq taxıl əkinlərinə yemləmə gübrələrin verilməsi, yaz əkinlərinə hazırlıq, kartof və soğan əkinlərinin optimal müddətə həyata keçirilməsinin əhəmiyyəti, meyvə və üzüm bağlarında görüləcək işlər, torpaqların şoranlaşmasının qarşısının alınmasında aparılacaq aqrotexniki tədbirlər barədə ailə təsərrüfatçıları və torpaq mülkiyyətçilərinin iştirakı ilə maarifləndirici tədbirlər keçiriblər.

Ay ərzində nazirliyə meyvə bağları və üzümlüklərdə yaz dövründə həyata keçiriləcək tədbirlərlə bağlı 41, taxıllara yemləmə gübrələrinin verilməsi ilə əlaqədar 14, ting əkini üçün 35, kartof əkini ilə bağlı 12, dənli-paxlalı bitkilərin əkini ilə əlaqədar 3 müraciət daxil olub, vətəndaşlara müraciət etdikləri məsələlərlə bağlı lazımi tövsiyələr verilib.

Cari ildə yaz əkinlərinin daha optimal müddətdə başa çatdırılması üçün texnika və texnoloji avadanlıqların vəziyyəti daim nəzarətdə saxlanılaraq texnika sahibləri ilə fərdi söhbətlər aparılıb. Gənc mexanizatorların hazırlanması məqsədilə nazirliyin əməkdaşı tərəfindən muxtar respublikaya gətirilmiş müasir texnikaların idarə olunması, istismar zamanı yarana biləcək nasazlıqların qısa zamanda aradan qaldırılması barədə onlara ətraflı məlumatlar verilib.

"Araz" Elm-İstehsalat Birliyinin Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsi tərəfindən mülkiyyətçilərin təqdim etdiyi 8 torpaq nümunəsi analiz olunub və tərkibindəki qida maddələrinin miqdarı barədə məlumat verilib. Birliyin əməkdaşları tərəfindən Ordubad rayonunun Çənnəb, Aza, Üstüpü, Darkənd, Məzrə kəndlərində torpaq mülkiyyətçilərini maarifləndirmək məqsədilə seminar-müşavirələr keçirilərək torpaqların münbitliyinin artırılması yolları və qida maddələri ilə təminolunma kartoqramlarından istifadə edilməsi qaydaları haqqında məlumatlar verilib. Birliyin tingçilik sahəsindən Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin yaşıllıq zolaqlarına 350, Ordubad Rayon İcra Hakimiyyətinin yaşıllıq zolaqlarına 600, "N" hərbi hissəyə 1000, Süni Mayalanma Mərkəzinin yaşıllıq zolaqlarının bərpası üçün 300 çəyirdəkli, qərzəkli və tumlu meyvə tingləri verilib.

Azərbaycan Dövlət Aqrar Universitetinin Aqronomluq fakültəsinin bir nəfər tələbəsinin və Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq fakültəsinin 16 tələbəsinin istehsalat təcrübəsi davam etdirilib.

Toxumçuluq və bitkilərin mühafizəsi idarəsinin mütəxəssisləri taxıl əkini ilə məşğul olan fermer və ailə təsərrüfatı üzvləri ilə görüşlər keçirib, taxılın suvarılması və vegetasiya dövründə azot gübrəsinin norma nisbətində verilməsi barədə maarifləndirici söhbətlər aparıblar. İdarəyə əkin sahələrində xəstəlik və zərərvericilərin aşkarlanması məqsədilə müraciət edən 48 torpaq mülkiyyətçisi və ailə təsərrüfatı sahiblərinə mütəxəssislər tərəfindən məsləhətlər verilib. Toxumçuluq təsərrüfatları və fermerlər tərəfindən laboratoriyaya gətirilən toxumlar analiz edilərək nəticəsi onlara təqdim olunub.

Ay ərzində heyvandarlığın inkişafı istiqamətində sahibkarlarla görüşlər davam etdirilib. Baytarlıq tədbirlərinin vaxtında aparılması və otlaqlardan səmərəli istifadə olunmasının əhəmiyyəti, yeni doğulan heyvanların zoobaytar qaydalarına uyğun yemləndirilməsi mövzularında müşavirələr keçirilib. Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı ilə bağlı Tədbirlər Planının icrası diqqətdə saxlanılıb. İri arıçılıq təsərrüfatlarının sahibkarları ilə fərdi söhbətlər aparılıb. Naxçıvan Dövlət Texniki Kollecinin IV kurs Baytarlıq təbabəti ixtisası üzrə təhsil alan 12 tələbəsinə Naxçıvan Muxtar Respublikası Süni Mayalanma Mərkəzində istehsalat təcrübəsində törədicilərdən toxum alınması və süni mayalanmanın əsaslarına dair praktik dərslər keçilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Bütün dövrlər üçün aktual vəzifə:

### *Gənclərin vətənpərvərlik tərbiyəsi*



***Dövlətimiz gələcəyimiz olan gənc nəslin Vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, soykökünə, adət-ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşıb və buna həyati əhəmiyyətli məsələ kimi baxıb. Çünki bütün bunlar insanda ən ali keyfiyyət olan vətənpərvərlik hisslərinin formalaşdırılmasında, gücləndirilməsində başlıca amildir. Vətənpərvərlik isə insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissləri yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir.***

Tarix bizə belə deməyə əsas verir ki, xalqımız qəhrəmanlar yetişdirən xalqdır. Və istənilən siyasi şəraitdə bu xalq öz Vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetirib. Onların yetişdirilməsi bu gün muxtar respublikamızın orta ümumtəhsil məktəblərində aparılan hərbi-vətənpərvərlik tərbiyəsinin tərkib hissəsidir. Diyarımızın ayrı-ayrı bölgələrində fəaliyyət göstərən muzeylərimizlə məktəblər arasında yaradılan interaktiv əlaqələr, distant dərslərin keçilməsi dediklərimizə sübutdur. Bu dərslər vasitəsilə şagirdlərə bir daha aşılanır ki, yaxın keçmişin acı təcrübəsi müstəmləkə siyasətinə xidmət edən, əslində, Azərbaycan xalqına müsibətlər gətirən "beynəlmiləlçilik tərbiyəsi" anti-türk siyasətinin tərkib hissəsi olub. Buna görə də interaktiv dərslərdə o da qeyd edilir ki, rus imperiyası işi qəsdən elə qurmuşdu ki, xalq öz soykökündən, qəhrəmanlıq tarixindən, adət-ənənələrindən uzaq düşsün.

Onu da qeyd etmək yerinə düşər ki, keçmiş Sovetlər Birliyi dövründə mövcud dərsliklərdə, dərs vəsaitlərində və metodik ədəbiyyatda hərbi-vətənpərvərlik hissləri aşılayan məlumatlar və hərbi məzmunlu biliklər məxfilik üzündən verilmirdi. Əslində, bu, şüurlu surətdə edilirdi ki, gənclər vətənpərvərlik duyğularından məhrum olsunlar.

Məktəbli uşaq və yeniyetmələrin bir vətəndaş kimi böyüməsində ailənin, cəmiyyətin, ümumilikdə, mühitin rolu böyükdür. Hərbi-vətənpərvərlik tərbiyəsini, sadəcə, quru sözlərlə, nəsihətlərlə məhdudlaşdırmaq olmaz. Çünki Vətən sevgisi gənc vətəndaşlarımızın məqsədyönlü davranışının və fəaliyyətinin motivi və ideyasıdır.

Bu baxımdan orta məktəblərdə tədris olunan gənclərin çağırışaqədərki hazırlığı fənninin böyük əhəmiyyəti vardır. Bu fənnin tədrisinin əsas məqsədi, birinci növbədə, gəncləri ölkənin müdafiəsinə psixoloji cəhətdən hazırlamaqdır. Bu isə gənclərə vətənpərvərlik hisslərinin aşılanmasında mühüm rol oynayır. Orduya çağırılan gənclərin orta məktəbdə oxuduğu dövrdə müəyyən hərbi biliklərə yiyələnməsi sonrakı dövrdə onların peşəkar hərbçi kimi yetişməsində də vacib rol oynayır. Ötən tədris ilində keçirilən ali məktəblərə qəbul imtahanlarında muxtar respublikanın ayrı-ayrı məktəblərinin məzunları xüsusi təyinatlı ali məktəblərin tələbəsi adını qazanıb, Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunanların da sayı artıb. Bu da onunla bağlıdır ki, məktəblərdə həmin fənnin yüksək səviyyədə keçirilməsinə xüsusi diqqət yetirilir, hərbi rəhbərlər Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəyi əsasında məktəblərdə dərs demək hüququ qazanırlar.

Məktəblilər arasında hərbi idman oyunlarının keçirilməsi də yeniyetmələrə vətənpərvərlik hisslərinin aşılanmasında əhəmiyyət kəsb edir. Bu oyunlarda qazanılan təcrübə isə ölkə miqyasındakı yarışlarda öz sözünü deyir. Buna misal kimi deyə bilərik ki, ölkə miqyasında keçirilən hərbi-idman oyunlarında Naxçıvan məktəbliləri də fəal iştirak edir, ön yerlərə sahib çıxır, muxtar respublikaya mükafatlarla qayıdırlar. Sevindirici haldır ki, bu yarışlarda fəal iştirak edən şagirdlərdə cəsarətlilik, çəldlik, mübarizlik, qələbə qazanmaq uğrunda iradə möhkəmliyi təmin olunur. Ona görə də belə oyunların məktəblərdə mütəmadi olaraq təşkilinə xüsusi diqqət yetirilir. Bu işdə Gənclər və İdman, Təhsil nazirliklərinin, idman federasiyalarının fəaliyyətlərini xüsusi qeyd etmək lazımdır. Sözügedən yarışların son zamanlarda kütləviliyinin artırılması da diqqətəlayiqdir. Keçirilən oyunlarda oğlanlarla yanaşı, qızların da iştirakı təmin edilir ki, bu da təqdirolunasıdır.

Yuxarıda da qeyd etdiyimiz kimi, gənclərin çağırışaqədərki hazırlığı dərslərinin ehtiyatda olan zabitlər tərəfindən keçilməsi bu işdə əhəmiyyətli rol oynayır. Belə mütəxəssislər şagirdlərə hərbi-vətənpərvərlik hisslərini daha keyfiyyətli şəkildə aşılaya bilirlər.

Şagirdlərin hərbi-vətənpərvərlik hisslərinin artırılmasında hərbçilərlə canlı ünsiyyət də mühüm rol oynayır. Hərbi dərslər zamanı şagirdlərin hərbi hissələrə aparılması da yeniyetmələrin formalaşmasında, onların Vətənə bağlılığının artırılmasında və Vətənin, torpağın müdafiəsində durmaq kimi hisslərinin inkişaf etdirilməsində böyük əhəmiyyətə malikdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi diqqət və qayğısı ilə əhatə olunan məktəblərin qarşısında gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi sahəsində məsul və təxirəsalınmaz vəzifələr qoyulması təsadüfi deyil. Bu vəzifələrin yerinə yetirilməsi ilə son dövrlərdə məktəblərimizdə şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsi xeyli yüksəlib. Hərbi-vətənpərvərlik tərbiyəsinin faktlar və zəngin əyani vasitələr əsasında aparılması tərbiyə işinin bu mühüm sahəsi üzrə maraqlı forma və üsulları da meydana çıxarıb, məktəblərlə hərbi hissələr arasında əlaqələrin yaradılması daha da gücləndirilib. Bu sahədə məktəblərdə toplanmış qabaqcıl təcrübə hərbi-vətənpərvərlik tərbiyəsini daha məzmunlu və məqsədəuyğun şəkildə aparmağa imkan verir.





Bu gün gənclərin çağırışaqədərki hazırlığı dərslərinə cəlb edilən hər bir yuxarı sinif şagirdi yaxşı bilir ki, ordumuz varlığımız deməkdir, bu sarsılmaz qüvvə, sözün əsl mənasında, xalqın gücüdür, gənclərin yüzlərlə igid və mərd nümayəndələrini öz sıralarında birləşdirən yumruqdur. Ona görə də xalqımız öz ordusu ilə fəxr edir, onu yüksək məhəbbət hissi ilə sevir.

Ötən il sentyabr ayının 27-də başlanan Vətən müharibəsində ordumuzun qazandığı Böyük Qələbədə başlıca səbəblərdən biri məhz onun sıralarında belə qəhrəman və vətənpərvər övladların olması idi. Bu gün qürur hissi duyuruq ki, azadlıq mücadiləsində naxçıvanlı gənclər də az deyildi. Onların yüzdən çoxu şəhidlik zirvəsinə ucaldı, bir qismi isə qazi ömrü yaşayır. Belə igidlərimizin keçdiyi şərəfli ömür və döyüş yolları bugünkü məktəblilər üçün bir örnək, onlarda vətənpərvərlik hisslərinin gücləndirilməsində nümunədir.

**Cavanşir ZEYNALLI**
***Naxçıvan Dövlət Universitetinin baş müəllimi***

*AMEA Naxçıvan Bölməsinin 2021-ci ilin birinci rübündəki elmi və elmi-təşkilati fəaliyyəti ilə bağlı hesabat iclası keçirilib.*

## Hesabat iclası keçirilib

Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev tədbiri açaraq elmi-tədqiqat müəssisələri tərəfindən aparılan tədqiqatların nəticələrindən bəhs edib. Alim cari illə ötən ilin müvafiq dövrünün göstəricilərini müqayisəli təhlil edib.

Sonra AMEA Naxçıvan Bölməsi Aparatının Elm və təhsil şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Orxan Bağırov məruzəsində bildirib ki, hesabat dövründə Naxçıvan Bölməsinin tərkibindəki elmi qurumlarda elmi-tədqiqat işlərinin təsdiq edilmiş planına uyğun olaraq 6 elmi istiqamətdə 6 problemi əhatə edən 7 mövzuya aid olan 37 iş 24 şöbə, 9 laboratoriya, 1 elmi-tədqiqat qrupu tərəfindən davam etdirilib.

Məruzəçi diqqətə çatdırıb ki, cari ilin birinci rübündə bölmə əməkdaşlarının 3 monoqrafiyası, 2 kitabı, 186 elmi əsəri çap olunub. Əsərlərdən 61-i xaricdə nəşr edilib, bir xəritə tərtib olunub. 9 məqalə impakt faktorlu jurnallarda işıq üzü görüb. Bölmənin humanitar və ictimai elmlər seriyası üzrə "Elmi əsərlər", həmçinin "Axtarışlar" jurnallarının bir nömrəsi çapdan çıxıb. Rüb ərzində 2 kitab, 1 monoqrafiya çapa hazırlanıb, 2 kitab, 2 monoqrafiya, 236 məqalə çapa təqdim edilib. Hesabat dövrü ərzində AMEA Naxçıvan Bölməsində elmi konfrans, 5 tədbir və 5 təqdimat keçirilib.

Bildirilib ki, Azərbaycan Milli Elmlər Akademiyasının prezidentinin məktubuna əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyəsi ilə həyata keçirilən AMEA Naxçıvan Bölməsində YUNESKO səviyyəli "İlandağ" geoparkının yaradılması və onun Qlobal Geoparklar Sisteminə və Ümumdünya İrsi Siyahısına salınması layihəsi çərçivəsində geoparkının ərazisinin ümumi, geoloji, geomorfoloji, landşaft, tarix-memarlıq, arxeoloji, biomüxtəliflik xəritələri tərtib edilib. Məruzədə qeyd olunub ki, doktorantura yolu ilə elmlər doktoru hazırlığına 2, dissertantura yolu ilə fəlsəfə doktoru hazırlığına 7, elmlər doktoru hazırlığına isə 2 nəfər qəbul olmuşdur.

Hesabat dövründə AMEA Naxçıvan Bölməsi bir sıra ölkələrlə sıx elmi əməkdaşlıq etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarına əsasən Naxçıvan Dövlət Universitetinin AMEA Naxçıvan Bölməsinə hamiliyə verilmiş 5 ixtisası üzrə təhsil alan tələbələri ilə iş diqqətdə saxlanılmışdır.

AMEA Naxçıvan Bölməsi ilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə həyata keçirdiyi "Sabahın tədqiqatçıları" layihəsi çərçivəsində Naxçıvan şəhərinin ümumtəhsil məktəblərindən 50 şagird bölmə alimləri tərəfindən hamiliyə götürülərək, fərdi və kollektiv şəkildə tədqiqatlara cəlb edilmiş, uğurlu nəticələr əldə olunmuşdur.

Qeyd olunub ki, akademik İsmayıl Hacıyev "Şöhrət" ordeni, Naxçıvan Muxtar Respublikasında elm sahəsində səmərəli fəaliyyətinə görə "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif edilmişdir. Əməkdaşlardan dosent Fizzə Məmmədova "Beynəlxalq İntellektual Əməkdaşlıq Komitəsi İntellektual Liqası"nın həqiqi üzvü, dosent Günel Məmmədova isə Hindistanın "Şərqin kimya jurnalı"nın redaksiya heyətinə üzv seçilmişdir.

AMEA-nın müxbir üzvləri Fəxrəddin Səfərli və Əbülfəz Quliyev çıxışlarında elmi göstəriciləri qənaətbəxş hesab edərək qeyd və təkliflərini bildiriblər.

## AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin biobiblioqrafiyası işıq üzü görüb




Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Mərkəzi Elmi Kitabxanası (MEK) tərəfindən "Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri" seriyasından tanınmış dilçi-türkoloq alim, AMEA-nın müxbir üzvü, AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Əbülfəz Aman oğlu Quliyevin biobiblioqrafik göstəricisi hazırlanıb. Görkəmli alim, Əbülfəz Quliyevin 70 illik yubileyi haqqında AMEA Rəyasət Heyətinin Qərarı ilə nəşrə tövsiyə olunan kitabın elmi redaktoru AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, redaktoru AMEA MEK-in Biblioqrafiya şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəhla Tahirqızı, tərtibçiləri filologiya üzrə fəlsəfə doktoru Aliyə Əbülfəzqızı və MEK-in baş biblioqrafi Mahnur Həsənovadır.

Görkəmli pedaqoq Əbülfəz Quliyevin həyat və fəaliyyətinin əsas tarixlərini özündə əks etdirən, 1972-2020-ci illəri əhatə edən biobiblioqrafiyada alimin monoqrafiya və dərslikləri, tərtibçisi olduğu və tərcümə etdiyi kitabları, elmi və elmi kütləvi məqalələri, elmi rəhbərlik və opponentlik etdiyi dissertasiyalar, Azərbaycan və türk dillərinin tarixini geniş təbliğ edən müxtəlif konfrans, simpozium, elmi seminarlarda etdiyi çıxış və məruzələri öz əksini tapıb. Həmçinin göstəriciyə alimin həyat və fəaliyyətinin əsas tarixləri, ictimai və elmi-pedaqoji fəaliyyəti haqqında üç dildə qısa oçerk daxil edilib.

Biobiblioqrafik göstəricidə materiallar xronoloji qaydada, əlifba sırası ilə və çap olunduğu dillərə görə qruplaşdırılıb. Kitabın sonunda göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə soraq-axtarış aparatı tərtib edilib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Yun jiletlər hərbi hissəyə təhvil verilib

***Sağlamlıq imkanları məhdud şəxslər tərəfindən toxunulan yun jiletlər hərbi hissəyə təhvil verilib.***



Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası çərçivəsində haqqıödənilən ictimai işlərin təşkil olunması, sağlamlıq imkanları məhdud şəxslərin səmərəli məşğulluğuna, onların sosial müdafiəsinin gücləndirilməsinə əlverişli şərait yaradıb. Ötən il ərzində 30-u sağlamlıq imkanları məhdud şəxs olmaqla, ümumilikdə, 224 nəfər sosialyönümlü ictimai işlərə cəlb olunub. Sağlamlıq imkanları məhdud qadınlar tərəfindən toxunmuş 4100 cüt corab, 2900 yun boyunluq, 920 yun şərf və 700 yun jilet artıq hərbi hissələrə təqdim edilib. Onlar tərəfindən toxunmuş daha 700 ədəd yun jilet yüksək dağlıq şəraitində xidmət edən əsgərlərimizə təhvil veriləcəkdir.

Əlahiddə Ümumqoşun Ordunun zabiti Ramin Dadaşov tədbirdə çıxış edərək bildirib ki, Naxçıvanda yerləşən ordu, birləşmə və hissələr hərtərəfli qayğı ilə əhatə olunub. Dövlət qayğısından və xalq-ordu birliyindən ruhlanan hərbi qulluqçularımız yüksək nizam-intizama və döyüş qabiliyyətinə malikdirlər. Bu gün əsgərlərə isti qış geyimlərinin təqdim edilməsi də növbəti qayğının ifadəsi, xalq-ordu birliyinin təcəssümüdür. Tədbirdə əsgər Tural Məlikov hərbi qulluqçular adından göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Çıxışların ardından yun jiletlər hərbi hissəyə təhvil verilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Ramazan – mənəvi zənginlik və əxlaqi kamillik ayı



*Xalqımızın ümummilli lideri Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dövründə milli və mənəvi dəyərlərimizin qorunması, gələcək nəsillərə ötürülməsinə ciddi önəm verir, bu dəyərlərə ehtiramla yanaşmağı hər bir azərbaycanlının vətəndaşlıq borcu hesab edirdi. Güclü qadağaların mövcud olduğu sovet dönəmində belə görkəmli dövlət xadimi bu istiqamətdə bir sıra işlər görüb. 1993-cü ildə ikinci dəfə siyasi hakimiyyətə gələn ulu öndərin xalqımızın milli-mənəvi dəyərlərinin, onun adət-ənənələrinin dirçəldilməsi, xüsusən İslam mədəniyyəti nümunələri olan məscidlərin, tarixi-memarlıq abidələrinin, ziyarətgahların bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsi ümummilli liderin bir daha islami dəyərlərə diqqətini göstərən parlaq misallardır. Artıq multikultural bir ölkə kimi tanınan Azərbaycanda hər bir dindara dini ayinləri icra etməyə hərtərəfli şərait yaradılıb.*

Ulu öndərin müəyyənləşdirdiyi bu xətt bu gün muxtar respublikamızda uğurla davam etdirilir. Məhz bunun ifadəsidir ki, Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı olub.

Yeni məscidlərin tikilməsi, dini ibadətgahların müasir standartlar əsasında təmir edilməsi, müqəddəs yerlərə ziyarətlərin təşkili və sair məsələlərin öz həllini yüksək səviyyədə tapdığı muxtar respublikamızda Ramazan ayının islami qaydalara uyğun şəkildə keçirilməsi təmin edilir. Bu ayda iftar süfrələrinin açılması, dindarların bir araya gətirilməsi müqəddəs ayinlərimizin təbliğində mühüm rol oynayır. Bu tədbirlərin paytaxt şəhərimiz Naxçıvanla yanaşı, muxtar respublikanın rayon mərkəzlərində və kənd yaşayış məntəqələrində də təşkili birliyin, xeyirxahlığın, İslam dininə böyük ehtiramın ifadəsi kimi diqqət çəkir.

Müsəlmanlar müqəddəs Ramazan ayını “on bir ayın sultanı” da adlandırırlar. Həmin ay müsəlmanlar Allah və din qarşısında vicdani borclarını daha dolğun ödəmək fürsəti əldə edir, mənəvi zənginliyin və əxlaqi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar. İslam dininə görə oruc tutanlar Allahın sevgisini qazanmış olurlar. Ramazan ayı Allahı dərk etmək, ruhən təmizlənmək və Uca Yaradana yaxınlaşmaq ayıdır. Ramazan ayı insanlar arasında birlik və bərabərliyin, xeyirxahlıq və şəfqətin, Uca Yaradana və ilahi hikmətə bağlılığın təntənəsini nümayiş etdirir. Ulu öndərimiz Heydər Əliyev deyirdi: ***“Ramazan ayı cəmiyyətimizdə həmrəyliyin, dini-mənəvi birliyin möhkəmləndirilməsi işinə xidmət edən, hər bir müsəlmanın, adət-ənənələrimizə riayət edən hər bir insanın qəlbində olan bayramdır. Bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır”.***

Oruc Həzrəti Adəmdən (ə) bəri bütün peyğəmbərlərə və onların ümmətlərinə vacib buyurulmuş qədim ibadətdir. Məsələn, Həzrəti Nuh (ə) bayram günləri istisna olmaqla, bütün ilboyu, Həzrəti Davud (ə) isə günaşırı oruc tutarmış. Bu barədə “Qurani-Kərim”də *“Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!”* (“əl-Bəqərə”, 183) bildirilir.

Həzrəti Peyğəmbər (s.a.v) belə buyurmuşdur: *“Ramazan ayı gələndə cənnətin qapıları açılır”*. Bu ibadət müsəlmanlara Uca Yaradan tərəfindən hicrətin ikinci ilində – şaban ayının on üçündə bəxş edilmişdir.

Ramazan ayı müsəlmanlar üçün çox müqəddəs və mübarək aydır. Çünki müqəddəs “Qurani-Kərim” bu ayda nazil olmağa başlamış, Həzrəti Məhəmmədə (s.a.v) peyğəmbərlik bəxş edilməklə İslam dini meydana gəlmişdir. İnsanları pis əməllərdən çəkindirən və axirətdə cəhənnəm əzabından qoruyan oruc ibadətinin bu ayda vacib buyurulması “Qurani-Kərim”də də əksini tapmışdır: *“İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) Ramazan ayında nazil edilmişdir. Aya (Ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutmalıdırlar; xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar...”* (əl-Bəqərə, 185).

Oruc ibadətinin həm mənəvi, həm də sağlamlıq baxımından faydaları çoxdur. Bu ibadətin fəzilətlərindən biri insanlarda mərhəmət və xeyirxahlıq hisslərinin güclənməsidir. Belə ki, ömürboyu çətinliyin nə olduğunu bilməyən zənginlər kasıbların halını anlaya bilməzlər. Lakin həmin insanlar oruc tutarsa, aclığın nə olduğunu başa düşərək yoxsulların əziyyətlərini hiss edər və onların qəlblərində şəfqət duyğuları yaranar. Beləliklə də, imkansızlara kömək edərək onları sıxıntılardan qurtarmağa çalışarlar.

Orucluq, eləcə də insana nemətlərin qiymətini öyrədir. Oructutmada bir müddət dünya nemətlərindən uzaq olan şəxs yenidən onları əldə etdikdə sevinir, həm də Allaha şükür etməyi öyrənir. Bu ayin həm də insanı sağlamlaşdırır. Çünki on bir ay ərzində çalışan insanın orqanizmi orucluq vaxtı dincəldikdən sonra funksiyasını daha rahat yerinə yetirir.

Müasir tibb elmində də orucun faydaları barədə xeyli məlumatlar var. Fransız alimi, Nobel mükafatı qazanmış Aleksi Karel məsələ ilə bağlı fikrini belə bildirmişdir: “Orucluq müddətində orqanizmdə yığılmış qida maddələri işlənir, sonra isə onların yerinə yeniləri gəlir və vücudda təzələnmə baş verir. Bu və digər baxımdan oruc sağlamlıq üçün faydalıdır”.

Bu məsələ ilə bağlı Rəsulullah (s.a.v) da hədislərində buyurmuşdur: *“Oruc tutun ki, sağlam olasınız”*.

Həddi-büluğa çatmış, ağlı yerində olan hər müsəlmana oruc vacibdir. Üzrsüz səbəbdən oruc tutmamaq günahdır və cəzası (kəffarəsi) vardır. Kəffarə bir gün bilərəkdən tutulmamış oruca görə iki ay ardıcıl oruc tutmaq və ya altmış yoxsulu doyuzdurmaqdır. Oruc tuta bilməyən əldən düşmüş və yaşlı şəxslər isə Ramazanın hər günü üçün fidyə verirlər. Fidyənin miqdarı fitrə qədərdir.

Onu da qeyd edək ki, Ramazan ayı bəzən 29, bəzən də 30 gün olur. Ay 29 gün davam edəndə də orucluq tam hesab edilir. Ən əsası həmin ayı bütünlüklə oruclu keçirməkdir. Necə ki Rəsulullah (s.a.v) doqquz Ramazan orucu tutmuş, onların dördü 29, beşi isə 30 gün davam etmişdir.

Oruc tutmağın məqsədi dini mükəlləfiyyəti icra etməklə Allahın əmrindən birini yerinə yetirməkdir. Bununla yanaşı, orucun əxlaqi və ictimai baxımdan da müəyyən fayda və hikmətləri vardır.

**✍ Muxtar MƏMMƏDOV**

# Dəyirmi masa



*Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin təşkilatçılığı ilə “Naxçıvan Muxtar Respublikasında mühasibat uçotunun təşkilinin mövcud vəziyyəti və perspektiv inkişaf istiqamətləri” adlı dəyirmi masa keçirilib.*

Tədbiri giriş sözü ilə açan mərkəzin direktoru, iqtisad üzrə fəlsəfə doktoru, dosent Mehriban İmanova qeyd edib ki, dəyirmi masanın təşkilində məqsəd muxtar respublikanın müəssisə və təşkilatlarında mühasibat uçotunun beynəlxalq standartlara uyğun təşkili və gələcək inkişaf istiqamətlərinin, eləcə də Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən keçiriləcək “Peşəkar Mühasib Sertifikasiyası” imtahanına hazırlığın vəziyyətinin müzakirəsidir.

Sonra mühasiblərin peşəkar sertifikasiyası prosesinin təşkili, imtahanların keçirilməsi qaydaları ilə bağlı Maliyyə Tədris Mərkəzi tərəfindən hazırlanan maarifləndirici videoçarx nümayiş olunub və bukletlər təqdim edilib.

Naxçıvan Dövlət Universitetinin Mühasibat uçotu və maliyyə kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor Teymur Abbasov “Naxçıvan Muxtar Respublikasında innovasiyalı iqtisadiyyat şəraitində mühasibat uçotunun aktual məsələləri”, “Naxçıvan” Universitetinin müəllimi Elvin Əlimərdanov “Yeni iqtisadi şəraitdə mühasibin qarşısında duran vəzifələr və əsas tələblər”, Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin maliyyə-təsərrüfat və ümumi işlər sektorunun müdiri Arzuman İmanov “Büdcə təşkilatlarında mühasibat uçotunun təşkilinin əsas istiqamətləri”, “Gəmiqaya Taxıl Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin baş mühasibi Faiq Abdullayev “Sahibkarlıq subyektlərində mühasibat uçotunun beynəlxalq standartlara uyğun aparılmasının zəruriliyi” mövzularında çıxış ediblər.

Sonra mövzu ilə əlaqədar müzakirələr aparılıb, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

# Gənc məşqçimiz Bakıda təşkil olunan təlim-məşq toplanışında iştirak edib



*Azərbaycan Futbol Federasiyaları Assosiasiyası tərəfindən icra olunan “Elit məşq” layihəsi çərçivəsində “Dalğa Arena”da növbəti təlim-məşq toplanışı keçirilib.*

Layihənin müxtəlif məntəqələrində (bölgələr üzrə) fəaliyyət göstərən məşqçilərin qatıldığı toplanış 5-12 aprel tarixlərini əhatə edib. Muxtar respublikamızdakı məntəqədən “C” kateqoriyalı məşqçi Bəhruz İsayev daxil olmaqla paytaxt və bölgələrdən, ümumilikdə, 12 məşqçi toplanışa cəlb olunub. Layihənin rəhbəri – aşağı yaş qrupları üzrə milli komandaların koordinatoru Miloş Velebitin tərtib etdiyi proqram əsasında məşqçilər üçün yeni istiqamətlər müəyyən olunub, məşq planlarına uyğun tapşırıqlar verilib. Toplanışda serbiyalı mütəxəssislə bərabər köməkçisi Qoran Lyubinkoviç və layihənin koordinatoru İlham Əzizzadə iştirak ediblər.

Qeyd edək ki, “Elit məşq”in əsas məqsədi paytaxt və bölgələrdən istedadlı futbolçuları seçərək ustalıq səviyyələrini artırmaq, onları müxtəlif yaş qrupları üzrə milli komandalar üçün yetişdirməkdən ibarətdir. Plana uyğun olaraq layihənin məşqçiləri üçün il ərzində 2 dəfə təlim-məşq toplanışları təşkil edilir.

**✍ Ceyhun MƏMMƏDOV**

# Əmək yarmarkası keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrasına uyğun olaraq muxtar respublikada əmək yarmarkalarının keçirilməsi davam edir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən növbəti əmək yarmarkası aprel ayının 13-də Ordubad rayonunda keçirilib.



Əmək yarmarkasında işaxtaranlara 12-si dövlət və 3-ü özəl sektor olmaqla, ümumilikdə, 15 müəssisədən 170 boş iş yeri təqdim edilib ki, bunlardan 101-ni qulluqçu vəzifəsi, 69-nu isə fəhlə peşəsi təşkil edib.

Yarmarkada 24 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 3 nəfərin peşə hazırlığı kurslarına və 11 nəfərin isə özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyatı aparılıb. Əmək yarmarkaları aprel ayı ərzində davam edəcək və növbəti əmək yarmarkası aprel ayının 14-də Babək rayonunda təşkil ediləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***Dünən Gənclər Fondunun dəstəyi, Naxçıvan Dövlət Universiteti Tələbə-Gənclər Təşkilatının təşkilatçılığı ilə ölkənin digər regionlarından və xarici ölkələrdən universitetdə təhsil alan tələbələrin Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinə ekskursiyası təşkil olunub.***

# Ekskursiya təşkil olunub



Gənclər Fondunun əməkdaşı Çingiz Ağayev və Naxçıvan Dövlət Universiteti Tələbə-Gənclər Təşkilatının sədri Əziz Qasımov çıxış edərək dövlət qayğısı nəticəsində gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün görülən işlərin önəmindən danışıblar. Ekskursiyanın gənclərin Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi ilə tanış olmaları və gənclərin asudə vaxtının mənalı təşkili məqsədilə keçirildiyi qeyd edilib.

Sonra gənclər Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsində yaradılmış istirahət və xizək mərkəzi ilə yaxından tanış olublar. Məlumat verilib ki, Ağbulaq kəndinin təbiəti, havası və müasir infrastrukturu kənddə ilin bütün fəsillərində turizmin inkişafı üçün geniş imkanlar açır. Buna görə kənddə Ağbulaq İstirahət Mərkəzi yaradılmış, qış turizminin inkişafı sahəsindəki imkanlar nəzərə alınaraq dağ-xizək mərkəzi qurulmuşdur. Vurğulanmışdır ki, bu gün həyata keçirilən tədbirlər Ağbulaq kəndini təkcə muxtar respublikada deyil, ölkəmizdə və dünyada tanıtmaqdadır.

Gənclər istirahət mərkəzində əyləncəli oyunlar oynayıb, kanat yolu vasitəsilə Ağbulaq kəndinin əsrarəngiz gözəlliyini səmadan izləmək şansı əldə ediblər.

Qeyd edək ki, ekskursiyada 50 fəal gənc iştirak edib, onlar üçün çay süfrəsi də təşkil olunub.

**Xəbərlər şöbəsi**

***İtmişdir***

Naxçıvan şəhər sakini Vəliyev Mübariz Səməd oğlunun adına verilmiş Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 307